Elektron Hökumət Portalı

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

# ELEKTRON HÖKUMƏT BÜLLETENİ

NO: 40 • İYUL 2017

Vətəndaş və dövlət qurumları arasında yeni münasibətlər

www.e-gov.az

vaxta qənaət

rahat

şəffaf

əlverişli

3 səh.

## Güzəştli Mənzil Sistemi «Elektron hökumət" portalı üzərindən fəaliyyət göstərir



www.e-gov.az

13 səh.

## Türkdilli dövlətlər arasında e-imzanın tanınması ilə bağlı razılıq əldə olunub

İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) informasiya və kommunikasiya texnologiyaları üzrə işçi qrupunun 2-ci iclası keçirilib.

16 səh.

## Daha bir vacib elektron xidmət «Elektron hökumət» portalına inteqrasiya edildi

Artıq sığortaedənlər rüblük hesabatlarını kağız formatında deyil, elektron imzadan istifadə etməklə «Elektron hökumət» portalı üzərindən göndərə bilərlər.

www.e-gov.az

"Elektron hökumət" portalının operatoru
RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ

# "Elektron hökumət" quruculuğu üzrə hüquqi baza möhkəmləndirilir


Azərbaycan Respublikası Nazirlər Kabineti

Artur Rasi-zadə
Azərbaycan Respublikasının Baş naziri

2017-ci ilin ikinci rübü ərzində "Elektron hökumət" infrastrukturunun hüquqi bazası möhkəmləndirilir:

## 5 aprel 2017

Azərbaycan Respublikası Prezidentinin "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 26 may tarixli 65 nömrəli Fərmanına dəyişikliklər edilib. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununda əks olunan səlahiyyətlər yeni redaksiyada müəyyən olunub.

## 28 aprel 2017

Azərbaycan Respublikası Prezidenti tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında Fərman imzalayıb.

Bu Fərmanda tikinti sahəsində vətəndaşların əmək hüquqlarının qorunması, sosial təminatlardan yararlanmasının təmin edilməsi, əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarətin gücləndirilməsi və monitorinqin müasir innovasiyalardan istifadə etməklə təşkili məqsədi ilə tikinti obyektlərinin inşası ilə məşğul olan fiziki və hüquqi şəxslərin elektron reyestrinin yaradılması əks olunur.

## 16 may 2017

Azərbaycan Respublikası Prezidenti "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında dəyişikliklər edib. Fərmanda əks olunan səlahiyyətlər yeni redaksiyada müəyyən olunub.

## 24 may 2017

Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanına dəyişikliklər edib. Fərmanda əks olunan məsələlərdən biri də "Elektron hökumət" portalı üzərindən "Güzəştli Mənzil" sisteminə gücləndirilmiş elektron imza ilə müraciət edilməsidir.

## 24 may 2017

Azərbaycan Respublikası Prezidenti "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 641-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb. Fərmanda daşınmaz əmlakın dövlət reyestrindən elektron imza ilə təsdiqlənmiş çıxarışın "Elektron hökumət" portalı üzərindən əldə olunması nəzərdə tutulur.

## 16 iyun 2017

Azərbaycan Respublikası Prezidenti istehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydasını təsdiq edib. Qayda ilə mövcud prosedurlar elektron qaimə fakturanın tətbiqi ilə sadələşdirilib. Belə ki, istehsal sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri öz seçimlərinə uyğun olaraq, qaimə fakturalarla yanaşı, elektron-qaimə fakturalardan da istifadə edə biləcəklər.

www.e-gov.az

# Güzəştli Mənzil Sistemi "Elektron hökumət" portalı üzərindən fəaliyyət göstərir



Ölkə başçısı İlham Əliyevin “Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında” 16.11.2016-cı il tarixli Fərmanına əsasən “Güzəştli mənzil” sistemi “Elektron hökumət” portalına inteqrasiya edilib.

«Elektron hökumət" portalında “Elektron imza” və ya “ASAN imza” vasitəsi ilə qeydiyyatdan keçib “Güzəştli mənzil” sistemi elektron xidmətindən istifadə etmək mümkündür.

Beləliklə, cari ilin 30 may tarixindən etibarən güzəştli mənzil əldə etmək hüququ olan vətəndaşlar "Elektron hökumət" portalına daxil olmaqla müraciətlərini Mənzil İnşaatı Dövlət Agentliyinə (MİDA) göndərə bilirlər.

Bunun üçün portalın "Bütün xidmətlər" bölməsindən Prezident Yanında Mənzil İnşaatı Dövlət Agentliyinin xidmət qrupu arasından "Güzəştli mənzil" sistemi elektron xidmətini seçmək lazımdır.

Xidməti portalın axtarış qutusuna "Güzəştli mənzil" sistemi yazmaqla da tapa bilərsiniz. Xidmətə müraciət etməzdən əvvəl istifadəçi təlimatı ilə mütləq tanış olun.

Sistemdən istifadə ilə bağlı ətraflı təlimatla, habelə güzəştli mənzil almaq hüququna malik şəxslərin kateqoriyaları və hər bir kateqoriya üzrə təqdim edilməli sənədlərin siyahısı ilə **“www.mida.gov.az”** və ya **“www.mida.az“** internet saytlarının ana səhifəsində yerləşən **“GÜZƏŞTLİ MƏNZİL SİSTEMİ”** keçidi vasitəsilə tanış olmaq mümkündür.

Güzəştli mənzil almaq istəyən, lakin elektron imzası olmayanların nəzərinə çatdırırıq ki, "Elektron imza"nı aşağıdakı ünvanlardan əldə etmək olar:

- ***"www.e-imza.az" saytı üzərindən onlayn müraciət etməklə;***
- ***"Şəbəkə" xidmət mərkəzlərindən;***
- ***Elektron imza qeydiyyat məntəqəsindən (Dilarə Əliyeva küç. 185);***

Məlumat üçün bildirək ki, Milli Sertifikat Xidmətləri Mərkəzi tərəfindən təqdim olunan “Elektron imza” sertifikatından istifadə tam pulsuzdur. 1 dəfə ödəniş edib, sertifikatı əldə etməklə 3 il müddətində heç bir xidmət haqqı olmadan tam ödənişsiz istifadə edilir.

Bundan əlavə, “Elektron imza” üçün imza yaratma və imza yoxlama məlumatları FİPS 140-2 və EAL 4+ təhlükəsizlik tələblərinə cavab verən daşıyıcılarda təqdim edilir.

"Güzəştli mənzil" sisteminin fəaliyyəti ölkə vətəndaşlarını müasir memarlıq üslubunda yaşayış sahələri ilə təmin etməklə onların məişət şəraitini yaxşılaşdıracaq.

# "Elektron hökumət" portalı və "Elektron imza"dan istifadə" mövzusunda növbəti seminar keçirilib

**Sön dövrdə bütün sahələrdə elektronlaşmanın sürətlə genişlənməsi “Elektron imza”dan istifadəni zəruri edib. Bu məqsədlə, mayın 4-də "Elektron hökumət" Təlim-Tədris Mərkəzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qurumlarının əməkdaşlarına seminarlar keçirilib.**

Seminarda "Elektron hökumət" portalının fəaliyyəti, “Elektron imza”dan istifadə qaydaları və onun elektronlaşmada rolundan danışılıb, ən çox müraciət olunan elektron xidmətlər barədə məlumat verilib.

Seminarın ikinci mərhələsində iştirakçılar "Elektron hökumət" portalı üzərindən təqdim edilən bir sıra xidmətləri test ediblər.

Tədbir müzakirələrlə yekunlaşıb.

Sonda seminar iştirakçılarına "Elektron hökumət" portalına giriş üçün istifadəçi adı/şifrə verilib.

"Elektron hökumət" portalı dövlət qurumlarının elektron xidmətlərini bir pəncərədə birləşdirən vahid xidmət məkanıdır. Şəffaf idarəçilik, səmərəli xidmət təminatı üçün yaradılmış, artıq 5 ildir fəaliyyət göstərən portal ölkəmizdə fəaliyyət göstərən qurumlara öz elektron xidmətlərini internet mühitində açıq formada təqdim etmək imkanı verir.

# Elektron imza tətbiqinin üstünlükləri və aktual problemlərinə həsr olunan Respublika Elmi-Praktiki konfransı keçirilib




Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin texniki dəstəyi və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Texniki Universitetində (ATU) "Elektron imza İnformasiya Cəmiyyətinin (Elektron hökumətin) vacib atributudur: Elektron imza tətbiqinin üstünlükləri və aktual problemləri" mövzusunda Respublika Elmi-Praktiki konfransı keçirilib.

Konfransın ilk günündə çıxış edən ATU-nun rektor əvəzi Xalıq Yahudov elektron imzanı İnformasiya Cəmiyyətinin ən vacib atributu adlandırıb və bu sahədə olan çətinliklərin aradan qaldırılmasında konfransın böyük əhəmiyyət kəsb etdiyini deyib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin şöbə müdiri İsbəndiyar Əliyev isə "Azərbaycanda elektron hökumət: mövcud vəziyyət və inkişaf perspektivləri" adlı məruzəsində bu sahədə tərəqqi üçün konkret hədəflərin müəyyən olunmasının vacibliyinə diqqət çəkib. Qeyd edib ki, "Elektron hökumət" texnoloji layihə deyil, bu, hökumətin vətəndaşlarına xidmətlərdən daha sivil formada istifadə etmək imkanı verir.

Təhsil Nazirliyinin sektor müdiri Gültəkin Hüseynova da təhsil müəssisələrində elektronlaşma prosesinin sürətlə aparıldığını qeyd edərək, bu sahədə peşəkar kadrların hazırlandığını bildirib.

Dövlət Gömrük Komitəsinin idarə rəisi, Layihələrin idarə edilməsi assosiasiyasının prezidenti, general-mayor İqbal Babayev isə "Elektron hökumət proqramı çərçivəsində layihələrin idarə edilməsi prinsipləri: reallıqlar və perspektivlər" mövzusunda çıxış edib.

Məruzəçi "Elektron hökumət" sahəsində həyata keçirilən layihələrin yaxşı perspektivlər vəd etdiyini, amma bunun tam olaraq reallaşmasına zaman lazım olduğunu vurğulayıb. Sonra dünyada "Elektron hökumət" modelləri və Azərbaycan modeli haqda məlumat verib.

Multimedia İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz də çıxışında "Elektron hökumət"in qısa zamanda böyük nailiyyətlər qazandığını qeyd edib. O.Gündüz "Elektron hökumətin məntiqi davamı olan açıq hökumətin inkişaf istiqamətləri" adlı məruzəsində internet resursları üzərindən şəffaflığın daha sürətli şəkildə yayıldığını vurğulayıb.

**Plenar iclasdan sonra konfrans işini aşağıdakı 3 bölmə üzrə davam etdirib:**

- *Elektron hökumətin imkanları və perspektivləri;*
- *Elektron imzanın əhəmiyyəti;*
- *İnformasiya cəmiyyətində elektron sənədlər və onların dövriyyəsi.*

Konfransda "Elektron hökumət" portalının operatoru olan Məlumat Hesablama Mərkəzinin mütəxəssisləri "Elektron hökumət" portalının strukturu, "Elektron hökumət" portalının qurumlararası mübadilə servisləri, "Açıq hökumət məlumatları" portalının strukturu, "Elektron hökumət" portalında elektron arayışların formalaşması, "Artırılmış Reallıq" texnologiyasının "Elektron hökumət" portalında tətbiqi, "Elektron hökumət" portalının informasiya təhlükəsizliyi, "Elektron hökumət" portalının texniki infrastrukturu, ""Elektron imza" ilə menecment fəaliyyəti və biznes proseslərinin səmərəliliyinin artırılması", "Mobil imza və elektron ödəniş tətbiqinin genişləndirilməsi", "Açıq açar infrastrukturunun perspektiv texnologiyaları", ""E-imza" texnologiyalarının kütləvi tətbiq sahələri, e-imza istifadəsinin texniki və hüquqi aspektləri", ""Elektron imza" tətbiqi ilə fərdi və məxfi məlumatların mühafizəsi" mövzularında elmi məqalə ilə çıxış ediblər.

Konfransa ümumilikdə 90 məqalə təqdim olunub.

www.e-gov.az

# "Dövlət qulluğu sistemində məlumat bazalarının yaradılması və idarə edilməsi" mövzusunda seminar keçirilib

**21 aprel tarixində Avropa Xarici Fəaliyyət Xidməti və Dövlət İmtahan Mərkəzinin (DİM) birgə təşkilatçılığı ilə "Dövlət qulluğu sistemində məlumat bazalarının yaradılması və idarə edilməsi" mövzusunda seminar keçirilib.**

DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov bildirib ki, Avropa İttifaqı ilə Azərbaycan arasında inkişaf edən tərəfdaşlıq münasibətlərinin, o cümlədən Avropa İttifaqı tərəfindən dəstəklənən institusional quruculuq alətlərinin xüsusi əhəmiyyəti var. Onun sözlərinə görə, dövlət qulluğu sahəsi üzrə baza yaradılıb və fəaliyyət göstərir: "Bu bazaya dövlət qulluqçularının işi barədə bütün məlumatları əldə etməyə imkan verən yeni alətlər daxil edilib".

Xarici İşlər Nazirliyinin İnsan Hüquqları və Demokratiya İdarəsinin Qanunun aliliyi və demokratiya şöbəsinin müdiri Aysel Yaqubova deyib ki, "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində Azərbaycan-Avropa İttifaqı arasında əlaqələrin son vaxtlar müşahidə olunan müsbət dinamikası və bu il Aİ ilə Azərbaycan arasında yeni ikitərəfli saziş layihəsi üzrə danışıqların başlaması baxımından önəmlidir.

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz bildirib ki, müasir dövrdə informasiya texnologiyalarının inkişafının dövlət qulluğu və dövlət idarəçiliyi sahəsində böyük rolu var.

Məlumat Hesablama Mərkəzinin Dövlət informasiya ehtiyatları və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestri şöbəsinin aparıcı mütəxəssisi Türkan Quliyeva seminarda təqdimatla çıxış edib. Məruzəçi çıxışında Dövlət reyestrlərinin aparılmasının məqsədi, hüquqi əsasları, reyestrin aparılma qaydaları və reyestr haqqında statistik məlumatları diqqətə çatdırıb.

Qeyd olunub ki, dövlət informasiya ehtiyatlarının və sistemlərinin idarə edilməsinin tənzimlənməsi, onların "Elektron hökumət" sisteminə inteqrasiyası, bir sözlə, dövlət reyestrinin yaradılması məqsədilə Məlumat Hesablama Mərkəzi tərəfindən hazırlanmış xüsusi proqram təminatı 2012-ci ilin dekabr ayında istifadəyə verilib.

Tədbirdə DİM-in əməkdaşları "Dövlət qulluğunda məlumat bazalarının yaradılması və idarə edilməsi sahəsində mövcud vəziyyət, qarşıya çıxan problemlər" barədə təqdimatla çıxış ediblər.

Tədbirin sonunda müzakirələr aparılıb. Sonda DİM-in fəaliyyəti və dövlət qulluğu sahəsində həyata keçirilən islahatlarla bağlı iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# Aprel ayında 6 regionda "Elektron hökumət" portalı üzrə silsilə seminarlar təşkil olunub





"Elektron hökumət" quruculuğu, sosial xidmətlərin elektronlaşması daim dəyişən, yenilənən prosesdir. Bu proses, eyni zamanda elektronlaşmada vətəndaşların iştirakının təmin olunmasını aktuallaşdırır. Yaranan zərurəti nəzərə alaraq, qeyri-hökumət təşkilatları da "Elektron hökumət"lə bağlı məqsədyönlü maarifləndirmə tədbirlərinə diqqət göstərir.

Aprel ayında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyinin ekspertləri tərəfindən "Elektron hökumət" quruculuğu barədə regionlarda yaşayan vətəndaşlara seminarlar keçirilib.

Seminarlar Niderland Krallığının Xarici İşlər Nazirliyinin maliyyələşdirdiyi Avrasiya Əməkdaşlıq Fondunun həyata keçirdiyi "Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi" Proqramı çərçivəsində baş tutub.

Ümumilikdə 6 rayonu əhatə edən və martın 30-u Mingəçevirdə start götürən seminarlar Bərdə, Ağdam, Göygöl, Yevlaxda davam edərək 27 aprel tarixində Ağdaşda yekunlaşıb.

Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyinin eksperti Xalid Kazımov isə layihənin məqsədi barədə məlumat verib. Bildirib ki, layihə çərçivəsində Ağdam şəhəri, Region Gender Mərkəzi İctimai Birliyinin ofisi, eləcə də Bərdə şəhəri, Regional İnsan Hüquqları Mərkəzi İctimai Birliyinin ofisində elektron xidmətlərin istifadəsi üzrə vətəndaşlara kömək göstərilir. İnternet və kompüter avadanlıqları ilə tam təmin olunan mərkəzlərə iş saatlarında istənilən elektron xidmətlə bağlı müraciət oluna bilər.

O qeyd edib ki, sürətlə inkişaf edən sosial xidmətlərin elektronlaşdırılması prosesinə vətəndaş nəzarəti və ictimai tələb vacibdir: "Bu gün "Elektron hökumət" quruculuğu sahəsində aparılan işlər yaşam dinamikasının sadələşdirilməsi və sivil hüquqların qorunması üçün kifayət qədər resurslar təqdim edir. Bu resursların sayının çoxluğu və virtual olaraq vətəndaşlara açıq olması sosial rifahın yaxşılaşdırılması üçün nəzərdə tutulub. Bu istiqamətdə qanunvericilik islahatları davamlı şəkildə vətəndaş rəyinə və istifadəsinə uyğun inkişaf etdirilir." Bu baxımdan, "Elektron hökumət" portalından istifadənin vacibliyini vurğulayan ekspert qeyd edib ki, elektron xidmətlər vaxta və enerjiyə qənaət, məmur-vətəndaş ünsiyyətindən azad olmaq kimi üstünlüklər yaradır.

Daha sonra Məlumat Hesablama Mərkəzinin mütəxəssisləri Günay Hüseynova və Elvin Cəfərli İKT-nin xidmət sahələrinə tətbiqi ilə bağlı rəsmi sənədlərdən, "Elektron hökumət" portalının qanunvericilik bazası, portalın yaranması və inkişaf mərhələləri barədə məlumat veriblər.

Eyni zamanda "Elektron hökumət" portalı seminar iştirakçılarına praktiki olaraq göstərilib, portalın giriş vasitələri, xidmət qrupları və ən çox müraciət olunan elektron xidmətlər, həmçinin vətəndaşların portaldan istifadəsini sadələşdirən alətlər əyani olaraq test edilib.

Seminar sual-cavab sessiyası, müzakirələrlə yekunlaşıb. Sonda tədbirin fəal iştirakçılarına "Elektron hökumət" portalına daxil olmaq üçün istifadəçi adı və şifrə verilib.



www.e-gov.az

# Tələbələrə “Elektron hökumət” mövzusunda məlumat verilib





**Cari ilin II rübü ərzində seminarlar Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Universitetində baş tutub.**

Seminarlarda Elektron Hökumət Təlim-Tədris Mərkəzinin (EHTTM) direktor vəzifəsini icra edən Rauf Cabbarov çıxışlarında müasir dövrdə İKT sahəsinə aid peşələrə olan tələbat və bu sahədə mütəxəssis çatışmazlığından söz açıb. Dövrün iş tələblərindən bəhs edən məruzəçi hər sahədə olduğu kimi, İKT sahəsində də peşəkarlığın önəmli olduğunu vurğulayıb.

Tədbirdə EHTTM-in fəaliyyətinə də toxunularaq, mərkəzin İKT sahəsinin bütün istiqamətləri üçün peşəkar kadr hazırlığı ilə məşğul olduğu, eyni zamanda burada təlim-tədris keyfiyyətinə “Microsoft” və “Cisco” kimi şirkətlərin öz keyfiyyət nişanı ilə zəmanət verdiyi diqqətə çatdırılıb.

İkinci sessiya “Elektron hökumət” portalı, elektron imza, elektron xidmətlərin gündəlik həyatda rolu və digər məsələlər barədə olub. Məlumat Hesablama Mərkəzinin mühəndisi Elvin Cəfərli portalın yaradılması, inkişafı və vətəndaşlara təqdim etdiyi xidmətlərdən danışıb. Elektron sənəd mübadiləsindən söz açan mütəxəssis elektron imzanın üstünlükləri barədə gənclərə məlumat verib.

“Elektron hökumət” portalı üzrə təqdim olunan arayışlar, elektron imza ilə imzalama prosesi üzrə təqdimatlar edilib.

Müzakirələrlə davam edən seminarların sonunda sorğu keçirilib, fəallar mükafatlandırılıb.

# Koreyanın Sunqşil Universitetində Azərbaycanın "Elektron hökumət" modelindən bəhs edilib

"Elektron hökumət" portalının istifadəyə verilməsi ilə ölkəmiz elektronlaşmada yeni bir mərhələyə keçid etmiş oldu. Bu mərhələ vahid məkandan rahat xidmətlərin təqdim olunması üçün yerli və mərkəzi icra orqanlarının fəaliyyətini birləşdirdi. Bu dövrü müxtəlif sahələr üzrə fəaliyyət göstərən idarəetmə strukturlarını vətəndaşlara yaxınlaşdıran vahid standartlar dövrü kimi də təsnif etmək olar.

Və artıq 5 illik fəaliyyətin müsbət nəticəsindən ölkənin xaricdə təhsil alan tələbələri də inamla danışır. Koreyada Sunqşil Universitetində İT mühəndislik ixtisası üzrə təhsil alan həmvətənimiz Leyla Əliyeva Azərbaycanın "Elektron hökumət" modeli və “elektron imza” barədə tələbələrlə seminar keçirib.

Təqdimat ərzində "Elektron hökumət" portalının texniki infrastrukturu və portal əyani olaraq tələbələrə nümayiş etdirilib. Həmçinin, elektronlaşmanın mühüm elementi olan “elektron imza”nın tətbiqindən bəhs olunub.




O, ölkənin "Elektron hökumət" portalına 42 qurumun fəaliyyət məkanı, həmçinin sosial məsələlərə innovativ yanaşmanın ünvanı kimi baxdığını söyləyib. L.Əliyeva zaman-zaman portalın arayış xidmətlərindən istifadə etdiyini bildirib, bu elektron xidmətlərin vaxta, kağıza, işçi potensialına qənaət özəlliyini vurğulayıb.

Seminar qarşılıqlı sual və müzakirələrlə yekunlaşıb.

# Minskdə Regional Rabitə Birliyinin iclası keçirilib

## Azərbaycan RRB-nin Administrasiya Başçıları Şurasının və RRB yanında İnformasiyalaşdırma üzrə Koordinasiya Şurasının birgə iclasında təmsil olunub

**18-19 aprel tarixlərində Belarus Respublikasının Minsk şəhərində Regional Rabitə Birliyinin (RRB) Administrasiya Başçıları Şurasının 52-ci və RRB yanında İnformasiyalaşdırma üzrə Koordinasiya Şurasının 23-cü birgə iclası keçirilib.**

İclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan, Ermənistan, Bolqarıstan və Latviyanın rabitə administrasiyalarının başçıları, həmçinin Beynəlxalq Telekommunikasiya İttifaqının, Ümumdünya Poçt İttifaqının, Regional Rabitə Birliyinin və "İntersputnik" beynəlxalq kosmik rabitə təşkilatının rəhbərləri iştirak edib. Ölkəmizi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Sahə üzrə 30-a yaxın aktual məsələnin müzakirə olunduğu iclasın ilk günündə RRB-nin gələcək fəaliyyəti ilə bağlı mühüm qərarlar qəbul edilib.

Nazir Ramin Quluzadə iclasın gündəliyinə dair məsələlərə münasibət bildirib və qeyd edib ki, Regional Rabitə Birliyi səmərəli regional təşkilat nümunəsidir.

Nazir iclasda müzakirə olunan məsələlərin və qəbul edilən qərarların İKT sektorunun və informasiya cəmiyyətinin davamlı inkişafına, işgüzar əməkdaşlığın möhkəmlənməsinə xidmət etdiyini bildirib.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 13 fevral 2017-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin birləşdirilərək onların əsasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması barədə iclas iştirakçılarına məlumat verən Ramin Quluzadə qeyd edib ki, bundan sonra da Azərbaycan RRB-nin fəaliyyətinin bütün istiqamətləri üzrə uğurlu əməkdaşlığı davam etdirəcək.

Tədbir çərçivəsində nazir RRB-nin üzvü olan bir neçə ölkənin rabitə administrasiyalarının rəhbərləri ilə ikitərəfli görüşlər keçirib.

# Məlumat Hesablama Mərkəzinin əməkdaşları "Barama Hackathon 2017" yarışında qalib olublar



**Məlumat Hesablama Mərkəzinin əməkdaşları "Barama Hackathon 2017" yarışında birinci yeri qazanıblar.**

Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin təşkilatçılığı, "Azercell" və "PASHABank"-ın sponsorluğu ilə təşkil edilən tədbirdə seçilmiş 10 komanda yarışıb. Yarışda "The Dev Squad" adı altında çıxış edən komanda verilmiş tapşırığı vaxtında yerinə yetirərək, 36 saat ərzində "Baku Shopping Guide" adlı mobil tətbiq hazırlayıblar.

Mobil tətbiq Bakı şəhəri üzrə mağazaların ünvanı və marşrutunu göstərməklə, istifadəçilərə axtardıqları dükanı rahatlıqla tapmaqda bələdçilik edəcək. Proqramın xüsusi maraq doğuran tərəfi dükanlar üzrə endirim kampaniyalarını əks etdirməsidir. Belə ki, endirim nəzərdə tutulan bütün mağazalar bu tətbiqdə xəritə üzərində göstərilir. Endirim faizlərinin seçmə imkanı proqramdan istifadəni daha da sadələşdirir.

Qeyd edək ki, "The Dev Squad" komandasının üzvləri ölkəmizdə "Elektron hökumət" portalı kimi innovativ layihələrin proqramçılarıdır. Elə həmin komandanın hazırladığı "Poçt ünvanları" mobil tətbiqi marşrutu göstərməklə istifadəçinin istədiyi poçt məntəqəsinə rahatlıqla çatmasını təmin edir.

# “TIBO 2017” sərgisində ölkəmizin telekommunikasiya sahəsindəki yenilikləri nümayiş etdirilib

**Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Belarusun paytaxtı Minskdə keçirilən "TIBO-2017" beynəlxalq telekommunikasiya sərgi-forumunda iştirak edib.**

Nümayəndə heyətinin tərkibində dövlət, özəl və qeyri hökumət təşkilatlarından 30-a yaxın təmsilçi olub.

Tədbirin açılış mərasimində Belarus Respublikasının baş nazirinin I müavini Vasili Matruşevski, bu ölkənin rabitə və informasiyalaşdırma naziri Sergey Popkov, Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, beynəlxalq təşkilatların və eləcə də digər ölkələrin sahə üzrə rəhbər şəxsləri iştirak edib.

Sərgidə təşkil olunan tur çərçivəsində rəsmi şəxslər Azərbaycan Milli Pavilyonuna baş çəkib, ölkəmizin İKT sahəsində əldə etdiyi yeniliklərlə tanış olublar.

Ənənəvi olaraq hər il keçirilən sərgi telekommunikasiya, bank və ofis texnologiyaları sahəsi üzrə ixtisaslaşıb.

Sərgidə informasiya və kommunikasiya texnologiyaları sahəsində proqram təminatı, bank texnologiyaları, istehlakçı elektronikası üzrə yerli və əcnəbi şirkətlərin ən son nailiyyətləri nümayiş olunub.

Builki sərgidə son nəsil ofis kompüterləri, “5G” texnologiyası, “elektron hökumət” və “ağıllı” əşyalar kimi tətbiqlər nümayiş etdirilib. Sərgidə 18 ölkədən (Belarus, Rusiya, Qazaxıstan, Azərbaycan, Litva, Latviya, Polşa, Çexiya, Almaniya, Avstriya, Finlandiya, İsveç və s.) 100-dən çox şirkət iştirak edib.



Sərgi çərçivəsində müxtəlif mövzular üzrə 15 “dəyirmi masa” keçirilib.

Qeyd edək ki, 1994-cü ildən keçirilən “TIBO” Müstəqil Dövlətlər Birliyi və Baltikyanı ölkələrin ən böyük İKT tədbirlərindən biri hesab olunur.

# Moskvada “Svyaz-2017” sərgisi baş tutub

**Azərbaycanın tərəfdaş olduğu “Svyaz-2017” sərgisi Rusiyanın paytaxtı Moskva şəhərində cari ilin aprel ayında baş tutub.**

Azərbaycan Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən “Svyaz-2017” (“Rabitə-2017) 29-cu Beynəlxalq İnformasiya-Kommunikasiya Texnologiyaları Sərgisində təmsil olunub. Sərgidə tərəfdaş ölkə statusunda ilk dəfə Azərbaycan çıxış edib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşkil etdiyi milli pavilyonda ölkəmizin telekommunikasiya, elektron hökumət, elektron imza, elektron həllər, poçt və mobil rabitə sahəsində qazandığı nailiyyətlər nümayiş olunub.

Sərgidə nazir müavini Elmir Vəlizadənin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir. Nümayəndə heyətinin tərkibində dövlət, özəl qurumlardan 20-yə yaxın təmsilçi daxil olub.

Sərginin açılış mərasimində digər rəsmilərlə yanaşı, Azərbaycan nümayəndəsi də çıxış edib.

1975-ci ildən keçirilən sərgi MDB və Şərqi Avropada informasiya texnologiyaları və telekommunikasiya sahəsində ən böyük həll və məhsulların təqdim edildiyi platforma hesab edilir.

Aprelin 28-də yekunlaşmış sərgidə dünyanın 21 ölkəsindən 322-dən çox aparıcı şirkət iştirak edib.

Sərgidə stasionar, mobil, peyk və optik-lif rabitəsi, məlumatötürmə şəbəkələri üçün həllər, telekommunikasiya, server və şəbəkə avadanlığı, kabel, peyk televiziya və radio yayımı sistemləri, xüsusiləşmiş proqram təminatı, informasiya təhlükəsizliyi, virtuallaşdırma, internet texnologiyaları, elektron ticarət sahəsində həllər və xidmətlər təqdim olunub.



Bundan başqa, “Svyaz-2017” aktual məsələlərin müzakirəsi, sahə üzrə peşəkarların, tədarükçü və alıcıların ünsiyyəti üçün əlverişli müzakirə meydançası olub. Sərgi zamanı telekommunikasiya və İT sənayesinin aktual məsələlərinə həsr olunmuş konfrans, “dəyirmi masa” və təqdimatlar keçirilib.

# “Elektron hökumət” portalında fəaliyyət göstərən xidmət beynəlxalq mükafata layiq görülüb

Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Cenevrə şəhərində keçirilmiş “İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti 2017” (WSIS) forumunda təmsil olunub.




Tədbirdə nazir müavini Elmir Vəlizadənin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Azərbaycan İnternet Cəmiyyətinin və Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin əməkdaşları təmsil olunublar.

Forum informasiya cəmiyyətinin inkişafı üzrə müsbət təcrübələrin bölüşdürülməsinə, biliklərin yayılmasına, əməkdaşlığın genişlənməsinə, qabaqcıl inkişaf meyillərinin müəyyənləşdirilməsinə xidmət edib.

İyunun 13-də Forumun rəsmi açılışı baş tutub. Plenar hissədə Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Haolin Jao, BMT-nin digər sahəvi təşkilatlarının rəsmiləri çıxış edib.

Yüksəksəviyyəli müzakirələrdə Azərbaycan nümayəndə heyəti də iştirak edib.




www.e-gov.az

Sammit çərçivəsində “İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti - 2017 Mükafatları” müsabiqəsinin qalibləri də mükafatlandırılıb. Belə ki, BTİ tərəfindən cari ilin 30 mart - 30 aprel tarixlərində elan edilən müsabiqəyə müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın ayrı-ayrı hökumət və qeyri-hökumət qurumları tərəfindən elektron sistemlərə dair layihələr təqdim olunub. Müsabiqədə iştirak edən 345 layihədən 143-ü dövlət sektoruna, 77-si biznes sektoruna, 56-sı vətəndaş cəmiyyətinə və s. aid olub.

Ümumilikdə 18 nominasiya üzrə onlayn səsvermə əsasında keçirilən müsabiqə 90 “Çempion layihə” seçilib. Azərbaycandan təqdim olunan layihələrdən Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi də “İKT Proqramları: E-Məşğulluq” nominasiyası üzrə ən çox səs toplayan ilk 5 layihədən biri olub və “Çempion layihə”lər sırasında yer alıb.

Mükafat Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndəsinə təqdim olunub.

Bununla da Azərbaycan İKT-nin uğurlu tətbiqi sahəsində ilk dəfə olaraq BTİ-nin mükafatına layiq görülüb.

Qeyd edək ki, 3 ilə yaxındır ki, tətbiq edilən Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin operatoru olduğu “Elektron hökumət” portalı üzərindən təqdim olunur. Hazırda xidmət portalda ən çox istifadə olunan xidmətlərdən biridir. Belə ki, 450 elektron xidməti özündə əhatə edən “E-hökumət” portalına ötən dövrdə 47,2 milyona yaxın müraciət qeydə alınıb ki, onlardan 7 milyona yaxını və ya 14,6 faizi




məhz Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sisteminə aid olub.

Forum öz işini iyunun 16-sı yekunlaşdırıb. Forumda nazirlər toplantısı, çoxsaylı yüksəksəviyyəli müzakirələr və təqdimatlar keçirilib. Azərbaycan nümayəndə heyəti bu tədbirlərdə fəal iştirak edib.



WSIS PRIZES 2017 CHAMPION
www.wsis.org

On the Occasion of the World Summit on the Information Society Forum 12 - 16 June 2017
THE INTERNATIONAL TELECOMMUNICATION UNION
AWARDS

MINISTRY OF LABOUR AND SOCIAL PROTECTION OF POPULATION OF REPUBLIC OF AZERBAIJAN
REPUBLIC OF AZERBAIJAN

CHAMPION OF WSIS PRIZES 2017

Category 11 E-employment

A certificate of recognition for outstanding contribution towards strengthening the implementation of the World Summit on the Information Society (WSIS) Outcomes

Geneva, 13 June 2017

Houlin Zhao
ITU Secretary-General

World Summit on the Information Society
Turning targets into action
2025

# NRYTN-in əməkdaşları "Bakı Marafonu 2017"-nin aktiv iştirakçılarından olublar



Heydər Əliyev Fondunun təşəbbüsü ilə aprelin 30-da keçirilən "Bakı Marafonu 2017" 13 mindən çox iştirakçını öz ətrafında birləşdirib.

İdmanın inkişafına dəstək göstərmək və sağlam həyat tərzini təbliğ etmək məqsədi ilə təşkil olunan marafon yarışı artıq 2-ci ildir ki, paytaxt Bakıda keçirilir və insabları dinamik və sağlam yaşamağa səsləyir. Tədbirin əsas hədəfləri idman sənayesinin inkişafını sürətləndirmək, gəncliyi sağlam və balanslaşdırılmış həyat tərzinə həvəsləndirməkdir.

"Küləyə qalib gəl" şüarı altında təşkil olunan 21 kilometrlik marafon Dövlət Bayrağı Meydanından başlayıb, Bakı Olimpiya Stadionunda başa çatıb.

Budəfəki marafonda müxtəlif ölkələrdən 1000-dən çox əcnəbi, Azərbaycanın ayrı-ayrı bölgələrindən 600-dək nümayəndə iştirak edib.

Bakı Marafonu Dənizkənarı Bulvar İdarəsinin, Bakı Olimpiya Stadionunun dəstəyi ilə təşkil olunub, layihənin icrasını isə "Sport Marketing Group" (SMG) şirkəti həyata keçirib.

Bir sıra təşkilat və şirkətlərlə yanaşı, marafonun tərəfdaş və sponsorlarından biri də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi olub.

Eyni zamanda, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin bütün qurumları "Bakı Marafonu 2017"-də fəal iştirak ediblər. Nazirliyin və tabeli müəssisələrin 1824 nəfər əməkdaşı iştirakçı qismində marafona qatılıb.

**Ötən il "Sağlamlıq - 2016" rabitə işçilərinin respublika spartakiadasında atletika üzrə yarışın qalibi olmuş nazirliyin Məlumat Hesablama Mərkəzinin əməkdaşı Türkay Zərgərli 21 km məsafəni 110 dəqiqəyə qət edərək, finişə çatan qadınlar arasında 30-cu olub.** Ümumilikdə isə bütün iştirakçılar həvəslə bu yarışda öz iradə və gücünü sınayıblar.

Marafon yarışları idman tədbiri olmaqla yanaşı, həm də xeyriyyə məqsədi daşıyır.

"Bakı Marafonu 2017"-dən toplanan vəsait Heydər Əliyev Fondunun valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı layihəsinə yönəldiləcək.

Onu da qeyd edək ki, bu cür marafonlar indiyədək London, Paris, Boston, Nyu-York, Çikaqo, Berlin, Barselona, İstanbul və digər şəhərlərdə təşkil olunub.







**Türkay Zərgərli.**
21 km məsafəni 110 dəqiqəyə qət edərək, qadınlar arasında finişə 30-cu çatıb.

# Türkdilli dövlətlər arasında elektron imzanın tanınması ilə bağlı razılıq əldə olunub

**İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) informasiya və kommunikasiya texnologiyaları üzrə işçi qrupunun 2-ci iclası keçirilib.**




Tədbirdə "Elektron hökumət", "Elektron imza", peyk xidmətləri, kibertəhlükəsizlik, "Trans Avrasiya Super İnformasiya Magistralı (TASİM)" layihəsi və fiber-optik infrastrukturunun inkişafı mövzularında altqrupların iclasları təşkil olunub. Qeyd olunan sahələrdə əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb.

İclaslarda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əməkdaşları iştirak edib.

Ölkəmizin "Elektron hökumət", "Elektron imza" infrastrukturu barədə təqdimatla çıxış edən Məlumat Hesablama Mərkəzi Milli Sertifikat Xidmətləri Mərkəzinin mütəxəssisi Həbib Abbasov sosial xidmətlərin elektronlaşdırılması, sənəd mübadiləsinin avtomatlaşdırılması və elektron imzanın tətbiqi barədə ətraflı məlumat verib. H. Abbasov bildirib ki, Azərbaycanın elektronlaşma sahəsində əldə etdiyi uğurlar elektron imzanın dövlətlərarası tanınmasına imkan verir.

E-hökumət altqrupu təqdimatlar və müzakirələr əsasında mobil tətbiqlər, "bir pəncərə" prinsipi üzrə elektron xidmət təminatı, açıq məlumatlar və s. üzrə təcrübə mübadiləsinin aparılmasını, bununla əlaqədar təlimlərin təşkil olunmasını, ümumi layihələrin hazırlanması üçün hər bir üzv dövlətin elektron hökumət sisteminin araşdırılmasını qərara alıb.

Sonda türkdilli dövlətlər arasında elektron imzanın tanınması məqsədi ilə ilkin şəraitin yaradılması ilə bağlı razılıq əldə olunub. Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan arasında elektron imzanın tanınması üçün tələb olunan məlumatların təmin edilməsi məqsəd olaraq qarşıya qoyulub.

Həmçinin, müzakirələr əsasında şuraya üzv dövlətlər arasında ortaq elektron xidmətlərin hazırlanması müzakirə olunub.

# "Danışan kitabxana"ya 30 mindən çox müraciət qeydə alınıb

ELEKTRON KİTABXANA

## Son zamanlar "Danışan kitabxana"ya maraq artmaqdadır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən görmə qabiliyyəti məhdud insanlar üçün hazırlanmış "Danışan kitabxana"ya bu günə qədər **2.416** nömrədən **32.808** dəfə müraciət olunub.

Müraciətlərdə müasir, klassik və tarixi ədəbiyyat üstünlük təşkil edir.

"Danışan kitabxana" 100-dək peşəkar səviyyədə səsləndirilmiş kitabı dinləyicilərin ixtiyarına verib. Kitabxana vasitəsilə 8 janrda – ***şifahi, müasir, xarici, poeziya, tarixi, dini, uşaq*** və ***klassik*** ədəbiyyatı dinləmək mümkündür.

Avtomatik rejimdə işləyən **1541** qısa nömrəsinə zəng etməklə "Danışan kitabxana"ya **24** saat ərzində müraciət edə bilərsiniz. Müraciət edən istifadəçi istənilən vaxt dinləməni dayandıra və bir müddət sonra dayandırılmış hissədən dinləməyə davam edə bilər.

# Onlayn imza proqramına yeni funksionallıqlar əlavə olundu

## "Elektron imza" sertifikatı istifadəçiləri yeni onlayn imza proqramından istifadə edəcəklər

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzinin tərkibində fəaliyyət göstərən Milli Sertifikat Xidmətləri Mərkəzi (MSXM) tərəfindən hazırlanmış onlayn imzalayıcı proqram yenilənib. Bu səbəbdən e-imza sertifikatı ilə imzalama proqramından istifadə edən istifadəçilər kompüterlərində olan imzalayıcı proqramı silib, yenisi ilə əvəz etməlidirlər. Milli Sertifikat Xidmətləri Mərkəzi bu barədə istifadəçilərə **"www.e-imza.az"** saytı üzərindən bildiriş təqdim edib.

**Yenilənmiş proqrama lokal faylların imzalanması və imzalanmış sənədlərin yoxlanılması üçün yeni imkanlar əlavə edilib. Bu yenilik, saytda və ya proqram təminatlarında imzalama imkanını əldə etmək istəyənlər üçün əlavə olunmuşdur.**

Həmçinin imzalama prosesində informasiyanın qorunması üçün təhlükəsizlik daha da gücləndirilib.

Bu sadə prosesi həyata keçirmək üçün ilk növbədə bildirişdə göstərilmiş və yüklənilməsi vacib olan **OnlineSigner.exe** faylını kompüterə yükləmək lazımdır. Avtomatik yüklənən proqramı administrator adından işə salmaq vacibdir. Açılan pəncərədə işləmək üçün istifadəçiyə rahat olan 3 dildən biri seçilir və **"OK"** düyməsi sıxılır. Açılan səhifədə **"Next"** *("Далее")* düyməsi, növbəti səhifədə **"install"** *("Установить")* düyməsi seçilir, nəhayət, **"Finish"** *("Завершить")* düyməsini kliklməklə proqram kompüterə yüklənmiş olur.

Onlayn imza proqramını tam olaraq kompüterə yüklədikdən sonra işləməsini yoxlamaq üçün göstərilmiş ünvana daxil olun: **https://localhost:10281/api/sign/version**.




*Əgər heç bir yanlışlıq olmayıbsa, nəticə olaraq ekranda* ***{"productNumber":"54ca98f4-91c1-4e9a-9b3b-f28ed6f4b996"}*** *bu yazı görsənməlidir.*

Link açılmadığı təqdirdə və ya hər hansı bir səhv haqqında məlumat görünərsə, deməli, proqram düzgün yüklənilməyib, yaxud proqramın işləməsinə mane olan digər səbəblər var.

Problemi aradan qaldırmaq üçün təlimatda göstərilən "Proqramda yaranan problemlərin aradan qaldırılması" bölməsindən istifadə edə və ya yaranan bütün suallara "157" Çağrı Mərkəzinə zəng etməklə cavab tapa bilərsiniz.




# "eGovPay" ödəniş sisteminin əhatə dairəsi genişlənir

## Bank BTB "eGovPay"-ə qoşulub

"Elektron hökumət" portalının "eGovPay" ödəniş sisteminin xidmətlərindən banklar da yararlanmağa başlayıb. Belə ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi ilə Bakı Ticarət Bankı - Bank BTB arasında bağlanmış müqaviləyə əsasən bankın bütün xidmət nöqtələri "Elektron hökumət" portalının "eGovPay" ödəniş sisteminə qoşulub.

Bundan sonra müştərilər Bank BTB-nin istənilən xidmət nöqtəsinə müraciət edərək mobil rabitə, stasionar telefonlar, internet, TV, kommunal xidmətlər və digər müxtəlif növ ödənişlərini həyata keçirə biləcəklər.

"eGovPay" ödəniş sisteminə qoşulmaq istəyən bir neçə bankla artıq müqavilələr imzalanıb və bu istiqamətdə işlər aparılır.

Məlumat üçün qeyd edək ki, "eGovPay" Prosessinq mərkəzi – müasir ödəniş platformasıdır. Onun vasitəsilə provayderlər ödəmə sistemini işə sala və ya sadəcə texniki proqramların köməyi ilə ödənişlər qəbul edə bilirlər.

"eGovPay" – geniş coğrafi ərazini əhatə edən müxtəlif xidmətlər üzrə etibarlı, onlayn, təhlükəsiz və sürətli ödəniş sistemidir. Bu mərkəzləşmiş sistem vasitəsilə çoxşaxəli, əlverişli, çevik xidmət təmin edilir və daha etibarlı ödəniş sistemi yaradılır.

# "Şəbəkə" xidmət mərkəzləri artıq Yasamal və Xəzər rayonlarında da fəaliyyətə başladı

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi növbəti "Şəbəkə" xidmət mərkəzlərini istifadəyə verib. Xəzər (Sergey Yesenin küçəsi 102) və Yasamal (Hüseyn Cavid prospekti 19) rayonlarında yerləşən "Şəbəkə" xidmət mərkəzlərində bütün növ telekommunikasiya, poçt, bank və maliyyə xidmətləri təşkil edilib.**




Xəzər və Yasamal rayonlarının sakinləri telefon çəkilişi, internetə qoşulma, bütün növ rabitə xidmətlərinin ödənişi, mobil cihazların IMEI qeydiyyatı, elektron hökumət xidmətlərindən yararlanmaq, elektron imzanın əldə olunması, valyuta mübadiləsi və aviabiletlərin alınması üçün bu mərkəzlərə müraciət edə bilərlər.

Mərkəzlərdə vətəndaşlara fasiləsiz olaraq həftənin iş günlərində səhər saat 9-dan axşam saat 7-dək , istirahət günləri saat 9-dan 6-ya dək xidmət göstərilir.

"Şəbəkə"nin yaradılmasında əsas məqsəd əhaliyə mərkəzləşdirilmiş qaydada yüksək standartlara uyğun xidmət göstərməkdir.

Xidmətlərin vahid məkanda cəmlənməsi, eyni zamanda, vətəndaşların vaxt itkisini aradan qaldırmağa və nağdsız ödənişləri stimullaşdırmağa hədəflənib.

Bakı şəhərində ilkin mərhələdə 10-a yaxın belə xidmət mərkəzinin açılması nəzərdə tutulur. Hazırda Yasamal rayonunda ikinci, Binəqədi rayonunda isə ilk "Şəbəkə" xidmət mərkəzinin açılması üçün təmir-tikinti işləri aparılır və yaxın zamanlarda onların istifadəyə verilməsi gözlənilir.

Gələcəkdə respublikamızın regionlarında da "Şəbəkə" xidmət mərkəzlərinin istifadəyə verilməsi planlaşdırılır.

# "Diplom haqqında arayış" elektron xidməti yeniləndi

**"Elektron hökumət" portalında Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təqdim edilən "Diplom haqqında arayış" adlı elektron xidmət yenilənib. Məlumat bazasına olunan əlavələrdən sonra ali məktəb məzunları 2011-ci ildən bu günədək olan diplomları haqqında arayışı əldə etmək imkanı qazanıblar.**




Qeyd edək ki, indiyədək "Diplom haqqında arayış" elektron xidməti 2012-2013-cü illərin məlumatını özündə əks etdirirdi.

Bir neçə ildir ki, portal istifadəçilərinin ixtiyarında olan adı çəkilən xidmətə istifadəyə verildiyi tarixdən bu günədək 58 min 424 dəfə müraciət qeydə alınıb.

Elektron arayışda sənədin nömrəsi, verilmə tarixi, vətəndaşın tam adı, doğum tarixi, qəbul olduğu təhsil müəssisəsinin adı, qəbul olduğu ixtisas, həmçinin bitirdiyi təhsil müəssisəsinin adı, ixtisası, fakültə, təhsil pilləsi, təlim dili, təhsil müəssisəsinə daxil olduğu və bitirdiyi illər, diplomun seriya nömrəsi, növü və s. məlumatlar öz əksini tapır.

Xidmətdən istifadə etmək üçün **www.e-gov.az** portalında qeydiyyatdan keçmək lazımdır. İstifadəçilər arayışı əldə etmək üçün 2 üsuldan istifadə edə bilər:

**"Diplomun Seriya və Nömrəsinə görə"** axtarışı seçən istifadəçi diplomun seriya nömrəsini, adının birinci hərfini, soyadının birinci hərfini və ata adının birinci hərfini sistemə daxil edib, "Göstər" düyməsini seçməklə elektron arayışını əldə etmiş olacaq.

**"FİN-ə görə"** axtarış düyməsini seçdikdə isə sistemə heç bir məlumat daxil edilmir. Sistem qeydiyyatdan keçmiş istifadəçini identifikasiya etdiyindən FİN nömrəsi avtomatik olaraq ekranda əks olunur. Sadəcə "Göstər" düyməsini seçməklə diplom haqqında məlumatı ekranda görmək mümkündür.

Qeyd edək ki, elektron arayışın aşağısında əks olunan ştrix kodlar arayışın sistem nömrəsini əks etdirir və bu ştrix koddan istifadə edərək arayışı qəbul edən təşkilat sənədin həqiqiliyini yoxlaya bilər. Bunun üçün isə portalın təqdim etdiyi "Elektron arayışların yoxlanılması" elektron xidmətinə daxil olaraq, arayışın ştrix kodunu qeyd etməklə elektron arayışa yenidən baxmaq imkanı vardır.

# Daha bir vacib elektron xidmət «Elektron hökumət» portalına inteqrasiya edildi

## Məcburi dövlət sosial sığortası üzrə hesabatların göndərilməsi elektron imza vasitəsi ilə daha təhlükəsizdir

Məlum olduğu kimi, "Məcburi dövlət sosial sığorta haqqının toplanılması" Qaydalarına əsasən, sığorta edənlər qeydiyyata alındığı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun müvafiq orqanlarına hər rüb məcburi dövlət sosial sığortası barədə hesabat təqdim edirlər.

2017-ci il 1 aprel tarixindən fərdi uçot əsaslı vahid rüblük hesabat alt sisteminin tətbiqinə başlanılması ilə **"Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi"** xidmətinə **“Elektron hökumət” portalı üzərindən** müraciət “Elektron imza” və “ASAN imza” vasitəsi ilə aparılır.

Lakin işçisi olmayan VÖEN sahibləri, yəni VÖEN almış fiziki şəxslər elektron sənəd mübadiləsinin aparılması məqsədi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən təqdim olunan şifrə/paroldan yararlana bilərlər. Pin zərfini əldə etmək üçün VÖEN sahibi olan fiziki şəxslər www.e-sspf.mlspp.gov.az ünvanına daxil olmaqla mütləq qaydada elektron müraciət etməlidirlər. Müraciət əsasında onlara PİN zərfində qeyd olunan xüsusi şifrə/parol verilir. Verilmiş şifrə/parol vasitəsi ilə **“Elektron hökumət” portalı üzərindən** hesabatlarını elektron qaydada təqdim edə bilərlər.

Sığorta hesabatlarının "Elektron imza və elektron sənəd haqqında" Qanuna uyğun icrası bu sahədə xoşagəlməz halların aradan qaldırılması məqsədi daşıyır. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası qanununa əsasən, yalnız elektron imza vasitələri ilə imzalanmış elektron sənəd hüquqi qüvvəyə malikdir. Eyni zamanda, elektron imza ilə təsdiq olunmuş sənədə heç bir müdaxilə mümkün deyil, həmin sənədin bütövlüyünə və prosesin təhlükəsizliyinə tam təminat verilir.

Beləliklə, məcburi dövlət sosial sığortası üzrə hesabatları təqdim etmək üçün, “Elektron imza” və “ASAN imza” vasitəsi ilə **"Elektron hökumət" portalına** daxil olaraq, **"BÜTÜN XİDMƏTLƏR"** bölməsindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin **"Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi"** elektron xidmətini seçərək "Yeni hesabat" alt bölməsini aktiv edib, rüblük hesabatınızı qısa vaxtda müvafiq ünvana göndərə bilərsiz.

Həmçinin “Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi” xidməti üçün möhür səlahiyyətli elektron imza kartı olan müəssisə rəhbəri elektron imzası olan istənilən əməkdaşına elektron formada səlahiyyət verə bilər.

Məlumat üçün bildirək ki, “Elektron imza” sertifikatını birbaşa Məlumat Hesablama Mərkəzinə, eləcə də “Şəbəkə” xidmət mərkəzlərinə və həmçinin **www.e-imza.az** saytından onlayn sifariş etməklə 3 gün ərzində “Elektron imza” kartı və ya “Elektron imza” tokeni formasında əldə etmək mümkündür.

**Qeyd edək ki, Milli Sertifikat Xidmətləri Mərkəzinin təqdim etdiyi elektron imza daşıyıcısı olan smart kart və ya USB token istifadəçiləri 3 il müddətində əlavə heç bir ödəniş etmədən istənilən qədər əməliyyat apara bilər.**

# Cari ilin ilk 6 ayı ərzində 10582 “Elektron imza” sertifikatı istifadəyə verilib

## Toplam 23.635.703 autentifikasiya və elektron imza əməliyyatı aparılmışdır

Ölkədə “Elektron imza” sertifikatlarının sayının artması ilə yanaşı, onun istifadə miqyası da genişlənməkdədir. Belə ki, Məlumat Hesablama Mərkəzinin Milli Sertifikat Xidmətləri Mərkəzi tərəfindən cari ilin 6 ayı ərzində istifadəyə verilmiş “Elektron imza” sertifikatlarının sayı **10.582**-yə çatıb. Onlardan dövlət qurumlarının payına 3.440, fiziki şəxslərin payına 2.582, hüquqi şəxslərin payına isə 4.560 “Elektron imza” sertifikatı düşür.

Son bir ayda istifadəyə verilmiş “Elektron imza” sertifikatlarının sayı isə 3 minə yaxın olub. Yəni, 2017-ci ilin təkcə iyun ayında verilən **2736** “Elektron imza” sertifikatının 534-ü dövlət qurumlarının, 622-si hüquqi şəxslərin, 1580-i isə fiziki şəxslərin payına düşür.

“Elektron imza” sertifikatlarının istifadəyə verildiyi gündən cari ilin 1 iyul tarixinədək olan statistikaya əsasən, dövlət qurumları üzrə 69.422, fiziki şəxslər üzrə 19.792, hüquqi şəxslər üzrə isə 21.584 olmaqla, ümumilikdə **110.798** “Elektron imza” sertifikatı istifadəyə verilib.

Bundan əlavə, məntiqi olaraq elektron imza vasitəsilə həyata keçirilmiş əməliyyatların sayı da artmaqda davam edir. Belə ki, bu günə qədər dövlət qurumları tərəfindən toplam 18.858.500, hüquqi və fiziki şəxslər üzrə toplam 4.777.203 olmaqla, ümumilikdə **23.635.703** autentifikasiya və elektron imza əməliyyatı aparılıb. 2017-ci ilin ilk 6 ayı ərzində isə aparılan əməliyyatların ümumi sayı **5.782.910** olmuşdur ki, bu da ümumi aparılmış əməliyyatların təqribən **24.47**%-i deməkdir. Onlardan dövlət qurumlarının payına toplam olaraq 4.062.106, hüquqi və fiziki şəxslərin payına isə toplam 1.720.804 autentifikasiya və elektron imza əməliyyatı düşmüşdür.

Qeyd edək ki, elektron imza virtual mühit istifadəçisinin şəxsiyyətini müəyyənləşdirən vasitələrdən biridir. O, elektron sistemdə imzanın daşıdığı bütün funksiyaları yerinə yetirən, göndərilmiş elektron məlumatı kodlaşdıran və göndərəni təyin edən ədədi koddur. Elektron sənəd mübadiləsinin təsdiqləyici elementi kimi elektron imza virtual məkanda prosesin təhlükəsiz və çevik icrasını təmin edir. Bir sözlə, həyatımıza sirayət etmiş elektron imza rahatlığımızın və təhlükəsizliyimizin təminatçısına çevrilib.

# "Elektron hökumət" portalına cari ilin II rübü ərzində inteqrasiya edilən elektron xidmətlər

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Məlumat Hesablama Mərkəzinin operatoru olduğu "Elektron hökumət" portalına cari ilin II rübü ərzində aşağıda sadalanan yeni 19 elektron xidmət və 1 elektron arayış inteqrasiya olunub.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

*- Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi*

**Vergilər Nazirliyi**

*- Bəyannamələrin vergi orqanları tərəfindən hazırlanması və təsdiq edilmək üçün vergi ödəyicilərinə göndərilməsi*
*- Çağrı Mərkəzi vasitəsilə "Sadələşdirilmiş verginin bəyannaməsi"nin təqdim edilməsi*
*- Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu*
*- Fiziki şəxsin vergi uçotundan çıxarılması*
*- "Asan imza" istifadəçi İD-sinin dəyişdirilməsi*
*- Vergi bəyannamələrinin (sadələşdirilmiş vergi bəyannaməsi istisna olmaqla), hesabat və vergi öhdəliyinin yaranmaması haqqında arayışların vergi orqanına onlayn təqdim edilməsi*
*- Hazır sənəd barədə məlumatın verilməsi*

**Ədliyyə Nazirliyi**

*- Borcun, icra ödənişinin, icra hərəkətləri ilə bağlı xərclərin internet vasitəsilə ödənilməsi;*
*- Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatına dair təkrar şəhadətnamələrin və arayışların verilməsi;*
*- Dövlət notariat arxivindən notariat hərəkətləri barədə məlumatın və onlarla bağlı sənədlərin surətlərinin verilməsi;*
*- Soyadın, adın və ata adının dəyişdirilməsi üçün elektron müraciət;*
*- Vərəsəlik işlərinin açılıb-açılmaması barədə məlumatın verilməsi;*

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi**

*- Geodeziya, qravimetriya, fotoqrammetriya, topoqrafiya işlərinin həyata keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu;*
*- Müxtəliftəyinatlı xəritə və atlasların tərtibatı, nəşri üçün müraciətin və sənədlərin qəbulu;*
*- CİS üçün baza xəritələrinin tərtibi ilə əlaqədar müraciətin və sənədlərin qəbulu.*

**Prezident Yanında Mənzil İnşaatı Dövlət Agentliyi**

*- Güzəştli mənzil sistemi*

**"Azərsu" ASC**

*- Su təchizatı və tullantı sularının axıdılması sistemində baş vermiş qəza ilə bağlı müraciət*

**Əmlak Məsələləri Dövlət Komitəsi**

*- Daşınmaz Əmlakın Dövlət Reyestrindən elektron çıxarışın əldə edilməsi*

**Dövlət Dəniz Administrasiyası**

*- Dənizçinin şəxsiyyət sənədi haqqında elektron arayış*

## "EGOV" Artırılmış Reallıq - "EGOV AR"

Artırılmış Reallıq gerçək mühiti səs, görüntü, qrafik və digər məlumatlarla zənginləşdirən texnologiyadır.
Android və İOS sistemlərində çalışan "EGOV AR" adlı mobil tətbiq "Elektron hökumət" portalı, elektron imza və başqa layihələrlə bağlı istifadəçiləri məlumatlandırmaq üçün hazırlanıb. Real muhitdə olan obyekt Artırılmış Reallıq texnologiyası vasitəsi ilə interaktiv ola bilir. Bu mobil tətbiqin köməyi ilə şəkillər ekranda canlanan videoya çevrilir.

1. *Mobil cihazınızın əməliyyat sisteminə uyğun marketdən (Google Play Apple Store ) "EGOV AR" yazmaqla tətbiqi yükləyin.*

2. *Yüklənmiş mobil tətbiqi açdıqdan sonra mobil cihazınızın kamerasını üzərində "EGOV AR" logosu əks olunan şəklin üzərinə tuşlayıb canlanan videonu izləyə bilərsiniz.*



**QEYD:** *Hörmətli istifadəçilər, mobil cihazınıza yüklədiyiniz "EGOV AR" mobil tətbiqi açdıqdan sonra mobil cihazı bülletenin bu sayının 5 və 10-cu səhifələrində yerləşdirilmiş şəkillərin üzərinə tuşlamaqla mövzuya aid videonu izləyə bilərsiniz.*

## 2017-ci ilin ikinci rübü ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan elektron xidmətlərə müraciət barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərə müraciət sayı |
|---|---|---|---|
| 1 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 28 | 2 583 609 |
| 2 | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 37 | 1 912 847 |
| 3 | Dövlət İmtahan Mərkəzi | 15 | 1 653 435 |
| 4 | Dövlət Gömrük Komitəsi | 11 | 232 550 |
| 5 | Elektron arayışlar (*müxtəlif qurumlar tərəfindən təqdim edilən*) | 11 | 73 670 |
| 6 | "Azərsu" ASC | 9 | 58 839 |
| 7 | Daxili İşlər Nazirliyi | 3 | 23 329 |
| 8 | Əmlak Məsələləri Dövlət Komitəsi | 23 | 22 515 |
| 9 | Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyi | 1 | 19 403 |
| 10 | Ədliyyə Nazirliyi | 22 | 15 994 |
| 11 | Dövlət Miqrasiya Xidməti | 11 | 12 525 |
| 12 | Vergilər Nazirliyi | 64 | 11 522 |
| 13 | Mərkəzi Seçki Komissiyası | 7 | 10 873 |
| 14 | Digər xidmətlər | 2 | 9 592 |
| 15 | Təhsil Nazirliyi | 6 | 7 734 |
| 16 | Səhiyyə Nazirliyi | 24 | 4 671 |
| 17 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 3 818 |
| 18 | Dövlət Statistika Komitəsi | 5 | 3 052 |
| 19 | "Azərişıq" ASC | 1 | 2 808 |
| 20 | İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman | 1 | 1 813 |
| 21 | Mədəniyyət və Turizm Nazirliyi | 15 | 1 307 |
| 22 | İqtisadiyyat Nazirliyi | 8 | 1 089 |
| 23 | Müəllif Hüquqları Agentliyi | 5 | 1 028 |
| 24 | Kənd Təsərrüfatı Nazirliyi | 20 | 784 |
| 25 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 729 |
| 26 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 12 | 624 |
| 27 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 573 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 478 |
| 29 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 19 | 453 |
| 30 | Xarici İşlər Nazirliyi | 1 | 437 |
| 31 | Dövlət Sərhəd Xidməti | 2 | 407 |
| 32 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 304 |
| 33 | Dövlət Dəniz Administrasiyası | 17 | 300 |
| 34 | Baş Prokurorluq | 1 | 277 |
| 35 | Fövqəladə Hallar Nazirliyi | 3 | 271 |
| 36 | Milli Arxiv İdarəsi | 2 | 259 |
| 37 | Nəqliyyat Nazirliyi | 3 | 171 |
| 38 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 154 |
| 39 | Gənclər və İdman Nazirliyi | 4 | 121 |
| 40 | Energetika Nazirliyi | 5 | 111 |
| 41 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 64 |
| 42 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 18 |
| | **CƏMİ** | **415** | **6 674 558** |

www.e-gov.az

## 2017-ci ilin II rübü ərzində "Elektron hökumət" portalı vasitəsi ilə ən çox müraciət olunan elektron xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Müraciət sayı |
|---|---|---|---|
| 1 | Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi | NRYTN | 1064923 |
| 2 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | ƏƏSMN | 787401 |
| 3 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | Dövlət İmtahan Mərkəzi | 637180 |
| 4 | Ünvanlı sosial yardımla bağlı müraciətin edilməsi | ƏƏSMN | 492217 |
| 5 | Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi | Dövlət İmtahan Mərkəzi | 401394 |
| 6 | Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər)) ərizələrinin onlayn qəbulu | Dövlət İmtahan Mərkəzi | 396975 |
| 7 | Məcburi dövlət sosial sığortası üzrə hesabatların təqdim edilməsi | ƏƏSMN | 383159 |
| 8 | Telefon nömrəsi üzrə axtarış | NRYTN | 245229 |
| 9 | Mobil cihazların IMEI kodunun yoxlanılması | NRYTN | 208366 |
| 10 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | NRYTN | 174450 |
| 11 | Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu | Dövlət Gömrük Komitəsi | 170536 |
| 12 | Tibbi-Sosial Ekspert Komissiyasında sonuncu müayinəyə dair məlumatın verilməsi | ƏƏSMN | 148082 |
| 13 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | ƏƏSMN | 136170 |
| 14 | AzDataCom internet xidmətinə qoşulma üçün sifariş | NRYTN | 105404 |
| 15 | Sığortaolunanın onlayn uçota alınması | ƏƏSMN | 94687 |
| 16 | Sınaq imtahanına yazılış | Dövlət İmtahan Mərkəzi | 86245 |
| 17 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | ƏƏSMN | 77603 |
| 18 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | NRYTN | 75565 |
| 19 | Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu | Dövlət İmtahan Mərkəzi | 75337 |
| 20 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | ƏƏSMN | 71337 |

## 01.07.2017-ci il tarixinə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

***Bütün qurumlar üzrə***

| | |
|---|---|
| Dövlət İnformasiya Ehtiyatları | 89 |
| Fərdi Məlumatların İnformasiya Sistemləri | 176 |
| **Cəmi** | **265** |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 01.07.2017-ci il tarixinədək təqdim olunmuş "Elektron imza" sertifikatlarının sayı

| | |
|---|---|
| Dövlət qurumlarına verilmiş sertifikatlar | 69,422 |
| Hüquqi şəxslərə verilmiş sertifikatlar | 21,584 |
| Vətəndaşlara verilmiş sertifikatlar | 19,792 |
| **Cəmi** | **110,798** |

## 01.07.2017-ci il tarixinədək Milli Sertifikat Xidmətləri Mərkəzi tərəfindən təqdim olunmuş "Elektron imza" sertifikatlarının tranzaksiyası

| | E-imza | Autentifikasiya |
|---|---|---|
| Dövlət qurumları üzrə | 9,320,297 | 9,538,203 |
| Hüquqi və fiziki şəxslər üzrə | 2,359,599 | 2,417,604 |
| **Cəmi** | **11,679,896** | **11,955,807** |

# 2017-ci ilin ikinci rübü ərzində "Elektron hökumət" portalına edilən müraciətlərin sayı 6 674 558 oldu




Vətəndaşlarımızın "Elektron hökumət" portalına marağının artması müşahidə olunmaqdadır. Belə ki, portalın statistikasına nəzər salsaq görərik ki, 2017-ci ilin ikinci rübü ərzində ümumilikdə 762,337 nəfər 3,123,334 dəfə portala daxil olaraq 10,639,188 dəfə müxtəlif səhifələrə keçid ediblər. Həmin şəxslər 6,674,558 dəfə elektron xidmətlərə müraciət ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 35 saniyə təşkil edib.

Bu dövr ərzində portala müraciət edənlərin 21,4%-ni yeni istifadəçilər, 78,6%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Onu da qeyd edək ki, portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı 564,836 nəfərdir. Hər bir Azərbaycan vətəndaşı heç bir dövlət rüsumu ödəmədən kod-parol əldə edə bilər.

© 2017 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, 185
Çağrı mərkəzi: 157; Email: office@rabita.az